# Azərbaycan dünyanın astronavtika alimlərini Bakıya toplayacaq

***Dövlət başçısının yanında 2019-cu ilin yekunlarına həsr edilmiş müşavirədə Azərbaycanın çoxsaylı uğurları barədə ətraflı söz açıldı. Prezident ötən il Vaşinqtonda keçirilmiş Dünya Astronavtika Konqresində qəbul edilmiş qərar barədə danışarkən qeyd etdi ki, bu, bizim gördüyümüz işlərə böyük diqqətdir və bütövlükdə Azərbaycana göstərilən növbəti etimaddır: "Onu da bildirməliyəm ki, təxminən 50 il bundan əvvəl – 1973-cü ildə Sovet İttifaqında cəmi bir dəfə Dünya Astronavtika Konqresi keçirilmişdir, özü də Bakı şəhərində. O vaxt Heydər Əliyevin səyləri nəticəsində sovet məkanında məhz Bakı bu konqresin keçirilməsi üçün seçilmişdir. Təxminən 50 ildən sonra növbəti dəfə Bakıda bu konqres keçiriləcək, artıq müstəqil Azərbaycanın paytaxtı Bakı şəhərində".***

*Mən bir beynəlxalq tədbirə də diqqət yetirmək istərdim. Bu da keçən il Vaşinqtonda keçirilmiş Dünya Astronavtika Konqresidir. Bu, astronavtika sahəsində ən mötəbər tədbirdir. Bu konqres çərçivəsində Dünya Astronavtika Konqresinin 2022-ci ildə Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu da çox önəmli hadisədir – həm konqresin keçirilməsi böyük hadisədir, eyni zamanda, Bakı ilə bərabər, daha üç böyük şəhər bu yarışda iştirak edirdi – Rio-de-Janeyro, Sinqapur və Dehli şəhərləri. Bu çətin yarışda Azərbaycan qalib gəldi.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**






Xatırladaq ki, Prezident İlham Əliyev ötən il oktyabrın 29-da "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasının bu qərarı ilə əlaqədar qəbul edərkən bir çox məqamlardan söz açmış və ölkə mütəxəssislərinin kosmik tədqiqatlar sahəsində əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirmişdir.

Dövlət başçımız xüsusilə vurğulamışdır ki, bu konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir: "Növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun artmasının təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir. Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik, növbəti konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar, doğrudan da, çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir".

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev isə dövlət başçımızla görüşdə təkcə rəhbərlik etdiyi qurumun nailiyyətlərindən deyil, ümumiyyətlə, ölkəmizin qazandığı uğurlardan söz açmışdı. Qeyd etmişdir ki, kosmik sənayenin özünü uğurlu edən əsas meyarlardan biri insan amilidir. Son illərdə Azərbaycanda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə kifayət qədər bacarıqlı, texniki bilikləri və vərdişləri olan yeni bir nəsil formalaşmaqdadır. Ən önəmli məsələ isə odur ki, onlar öz Vətənini, xalqını sevən bir nəsildir.

Təbii ki, Azərbaycanda kosmik tədqiqatların aparılması təcrübəsinin çox böyük tarixi vardır. Nəsirəddin Tusinin Marağa rəsədxanası da, Sovet dönəmində yaradılmış Şamaxı rəsədxanası da dünya astronomiyasına böyük töhfələr vermişdir. Ancaq gənc müstəqil Azərbaycanın alimlərinin kosmik tədqiqatlar sahəsində əldə etdikləri nailiyyətlər dövlətimizin inkişafına və beynəlxalq aləmdəki nüfuzunun artmasına daha böyük zəmin yaradır. Çünki bu gün kosmik tədqiqatlar bizim üçün daha vacibdir. Belə ki, kosmosda təmsil olunmaq məhz bizim kimi müharibə şəraitində yaşayan, bədxahları çox olan ölkələrə lazımdır. Mütəxəssislərin fikrincə, Ermənistanla münaqişə şəraitində yaşayan, coğrafi mövqeyi ilə seysmik aktiv zonada yerləşən və təbii-fövqəladə hadisələrin baş verməsi hər an gözlənilən Azərbaycan üçün dövlətin təhlükəsizliyinə və ərazi bütövlüyünün qorunmasına xidmət edən genişmiqyaslı layihələrin həyata keçirilməsi, Yerin təkinin, meşə və su ehtiyatlarının qiymətləndirilməsi, etibarlı rabitə və informasiya şəbəkəsinin yaradılması, müxtəlif ekoloji problemlərin həlli, əldə edilmiş məlumatlardan istifadə, ölkəmiz üçün kosmik sistemin fəaliyyətini tənzimləyən kosmik sənaye infrastrukturunun inkişafı ilə öz səmərəli nəticələrini verə bilər.

"Azərkosmos"un mətbuat üçün yaydığı məlumatlardan oxuyuruq ki, kosmosa rabitə peykləri göndərmiş Azərbaycan dövləti məhz həmin aktuallıqları əsas götürmüşdür. Bizim peyk layihələrimizin qarşısında duran vəzifələr olduqca konkret və aydındır. Birinci vəzifə ölkənin informasiya və milli təhlükəsizliyinin təmin edilməsinə xidmət etməkdir. Burada çoxlu məqamlar var və onlardan birini yada salmaq kifayətdir. Belə ki, ermənilər işğal edilmiş Azərbaycan ərazilərində beynəlxalq hüququn norma və prinsiplərini ayaq altına ataraq, minbir oyundan çıxırlar. Ona görə də biz kosmosdakı peyklərimiz vasitəsilə ölkəmizin bütün ərazisini nəzarət altında saxlayır, əldə edilən məlumatları dövlət qurumlarına və müvafiq beynəlxalq təşkilatlara təqdim edirik. Məsələn, bu yaxınlarda ermənilərin Şuşa şəhəri ətrafında meşələri qıraraq Azərbaycan təbiətinə vurduğu ziyanın miqyasını ictimailəşdirmişdik.

Bildirilir ki, ikinci mühüm vəzifəmiz sosial-iqtisadi inkişafa dəstək verməkdir. Məlum olduğu kimi, cənab Prezident İlham Əliyev dövlət başçısı seçildikdən cəmi bir neçə ay sonra "Azərbaycan Respublikası Regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramını imzalamışdı. İndi həmin proqramların dördüncüsü icra olunur. Cənab Prezidentin əsas məqsədi odur ki, ölkədə əkinəyararlı torpaq sahələrindən məqsədəuyğun şəkildə istifadə edilsin. Bunun üçünsə, torpaqların dəqiq hesabı aparılmalı, kadastr müəyyən edilməlidir. Həmin prosesdə mütəxəssislərin ən yaxın köməkçisi kosmosdan çəkilmiş şəkillər və aparılmış kosmik tədqiqatlardır.

Üçüncü məqsədimiz elmi tədqiqatların aparılmasına dəstək vermək və kadr potensialımızı inkişaf etdirməkdir. Heç kəsə sirr deyil ki, Azərbaycan dövləti beynəlxalq aləmdə gedən elmi-texniki tərəqqinin sürəti ilə ayaqlaşmaq üçün lazım olan bütün addımları atır. Bunun üçün isə mütləq kosmik ailənin üzvü olmaq, Yer planetindən kənarda da tədqiqatlar aparmaq lazımdır. Yeri gəlmişkən, Azərbaycan dövlətinin kosmosa ilk rabitə-informasiya peykini göndərdiyi gün xalqımızı təbrik edən Prezident İlham Əliyev həmin peykin buraxılmasına nə qədər sevinmişdisə, "Azərkosmos"da çalışanların hamısının yerli kadrlar olmasını biləndə də bir o qədər fəxr etmişdi. Fikrimizcə, bu, xalqın intellektual səviyyəsinin artmasına Heydər Əliyev münasibətinin yeni təzahürü idi.

Dördüncü vəzifəmiz beynəlxalq kosmik təşəbbüslərdə Azərbaycan adından iştirak edərək, ölkəmizin beynəlxalq imicinin yüksəldilməsinə xidmət etməkdir. Mən bir vətəndaş olaraq fəxr edirəm ki, beynəlxalq təşkilatların hamısının keçirdiyi sorğunun nəticələrinə görə dövlətimizin və Prezidentimizin reytinqi ən yüksək yerlərdə göstərilir. Mən fəxr edirəm ki, Yer planetindən kənarda fəaliyyət göstərən, tədqiqat aparan peyklərin arasında üzərində üçrəngli Azərbaycan bayrağının təmsil olunduğu rabitə peykimiz də var.

"Azərkosmos"un növbəti vəzifəsi kosmik layihələrə sərf edilən vəsaitlərin kommersiya fəaliyyəti ilə geri qaytarılmasını təmin etməkdir ki, bu sahədə də gözlənilən nəticələrə nail oluruq. Məlumat verilir ki, "Azərkosmos"un gəlirlərinin 89 faizi məhz xidmətlərin ixracatından formalaşır. Üstəlik, kosmik ailənin üzvü olmaq nə qədər şərəfli olsa da, bir o qədər də məsuliyyətlidir. Çünki bu gün dünyada gedən ictimai-siyasi proseslər təkcə siyasətdə və iqtisadiyyatda deyil, eləcə də elmi-texniki tədqiqatlarda, deməli, kosmosda da güclü rəqabət yaradır. İndi artıq kosmosda 80 ölkənin rabitə peyki vardır və bu göstəricinin durmadan artacağı şəksizdir. Bu isə o deməkdir ki, "Azərkosmos" yeni tendensiyalar üzərində işləməlidir. Bu, rəqabətə davam gətirə bilmək üçün lazımdır. Eyni zamanda, dünya alimləri kosmosu və kosmik xidmətləri daha ucuz, sadə və əlçatan etməkdən ötrü yollar axtarırlar.



Bu gün beynəlxalq aləmdə bahalı optik peyklər vasitəsilə hər gün, hər saat çox böyük həcmlərdə peyk təsvirləri çəkilir, serverlərdə saxlanılır və müştərilərə satılaraq böyük həcmdə gəlir əldə edilir. Lakin qabaqcıl proqram təminatı vasitəsilə həmin təsvirləri emal edərək hazırlanan analitik təhlillər, tətbiqetmələr və texniki həllər "informasiya məhsulları"nın bazar dəyəri məsələsində yeni nəticələr ortaya qoyur. Bu isə "Azərkosmos" da daxil olmaqla, kosmik sənayenin bütün iştirakçılarından yeni yanaşma, yeni metod və strategiyalar tələb edir. Əminik ki, təşkilatımız həmin çağırışlara cavab verə biləcək bütün addımları atmağa qadirdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası 73-cü Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək üçün öz namizədliyini irəli sürmüşdü. Ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artmasının, respublikamızın ən islahatçı ölkə nüfuzu qazanmasının və mütəxəssislərimizin bu istiqamətdə apardığı təbliğat və təşviqat işlərinin nəticəsidir ki, Beynəlxalq Astronavtika Federasiyası adıçəkilən konqresə Bakının evsahibliyi etməsi barədə qərar qəbul edib. Həmin ədalətli qərar xalqımız və dövlətimiz üçün təkcə sevincli xəbər deyil, həm də fəxr edə biləcəyimiz növbəti bir qiymətləndirmədir.

"Azərkosmos"dan bildirirlər ki, əslində, burada qeyri-adi heç nə yoxdur. Çünki Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında ən sabit, ən çox islahatlar aparılan, beynəlxalq aləmdə mövcud olan ən demokratik dəyərlərə xüsusi önəm verilən bir dövlətdir. Təsadüfi deyil ki, dünyada söz sahibi olan Azərbaycan hər il onlarca beynəlxalq konfranslara, sərgilərə, festivallara, eləcə də digər irimiqyaslı tədbirlərə evsahibliyi edir.

**Hazırladı:**
**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**